**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

# Ali məktəblərin hazırlıq şöbələri üçün «Nitqin elmi üslubu (psixologiya təmayülü)» fənninin

# PROQRAMI

*Azərbaycan Respublikası Təhsil Nazirinin 30.01.2014-cü il tarixli əmri ilə təsdiq edilmişdir (əmr № 95)*

**Bakı – 2014**

**Tərtib edən:** *dos.Reyhan Yusif qızı Həbibli*

**Redaktor:** *prof.Sənubər Ələvsət qızı Abdullayeva*

**Rəyçilər:** *dos.Yaşar Əliş oğlu Məmmədli*

*dos.Elnarə Əhməd qızı Əhmədova*

*psixol.ü.f.d.Yəmən Əziz qızı Vəliyeva*

## İzahat vərəqi

***Fənnin tədrisinə ayrılan saatların miqdarı – 198 saat***

Tədris-elmi və elmi-pedaqoji ədəbiyyatın dili elmi üslubun xüsusi bir sahəsidir. Nitq üslubları parametrlərinin təsvirinin, onların qarşılıqlı əlaqələrinin müəyyənləşdirilməsinin, dəqiq terminlərin tapılmasının vacibliyi şübhəsizdir. Tələbələri həm bütövlükdə elmi dilin qanunauyğunluqları, həm də ayrı-ayrı fənlərin spesifikası ilə tanış etmək də zəruridir. Bu baxımdan elmi dil xüsusiyyətlərinin öyrənilməsi, «Nitqin elmi üslubu» fənninin tədrisi böyük nəzəri və praktik əhəmiyyət kəsb edir.

Burada başlıca məqsəd seçdikləri ixtisasla əlaqədar əcnəbi tələbələrdə nəzəri və praktik cəhətdən ilkin təsəvvürlər yaratmaq, onların nitqini inkişaf etdirməkdir. Fənnin məzmununun, tələbələrə veriləcək biliklərin həcminin və elmi dili öyrətmək sahəsində aparılacaq işlərin əsas istiqamətlərinin müəyyənləşdirilməsi metodik cəhətdən böyük əhəmiyyətə malikdir.

Ali məktəblərin hazırlıq şöbələrində Azərbaycan dilinin tədrisi prosesində tələbələrə dilimizin bəzi mühüm qanunlarını, bir sıra qrammatik anlayışları onların başa düşəcəkləri şəkildə mənimsətmək, şifahi və yazılı nitqini inkişaf etdirmək üzrə iş gedir. Nitq inkişafı hazırlıq şöbələrində bütövlükdə Azərbaycan dili tədrisinin başlıca prinsipidir.

«Azərbaycan dili» fənninin tədrisində əcnəbi tələbələrə fonetika, leksika, morfologiya, sintaksis üzrə sadə, nəzəri məlumatlar verilir, orfoepiya, orfoqrafiya, durğu işarələrinə aid ilkin praktik bilik və bacarıqlar aşılanır. Azərbaycan dilinin bu mühüm sahələri ilə «Nitqin elmi üslubu» fənni arasında əla-

qələr yaradılır. Həmin fənnin tədrisi tələbələrin «Azərbaycan dili» dərslərindən aldıqları bilik, bacarıq və vərdişlər zəminində qurulur, bu iki fənn arasındakı qarşılıqlı, dialektik əlaqələr diqqət mərkəzində saxlanılır.

«Nitqin elmi üslubu (psixologiya təmayülü)» fənn proqramı ali məktəblərin hazırlıq şöbələrinin əcnəbi tələbələri üçün olan tədris proqramının əsasında tərtib edilmişdir və nitqin elmi üslubunun tələblərinə əsasən seçilmiş konstruksiyalardan ibarətdir, leksika və mətnlər isə «Psixologiya» ixtisasının tədris proqramına uyğunlaşdırılmışdır.

Əcnəbi tələbənin nitq qabiliyyətinin inkişaf modeli tədris proqramına uyğun olaraq nəzərdə tutur:

- yazılı və şifahi mətnlərin zəruri tədris-peşə informasiyasını adekvat şəkildə qavramağı;
- tədris-peşə xarakterli ünsiyyətdə iştirak etməyi;
- müsahiblə ünsiyyət yaratmağı, onun ifadələrinə adekvat reaksiya verməyi, dəqiqləşdirici suallar verməyi, təkrar soruşmağı, xahişlə müraciət etməyi, əlavələr etməyi, ümumiləşdirməyi;
- qavranılan informasiyaya qiymət verməyi, onun müəllifinin fikri ilə razı olub-olmamasını ifadə etməyi, əks arqumentlər gətirməyi;
- öz fikrini ifadə etməyi, ayrı-ayrı müddəaları dəqiqləşdirmək və izah etməyi;
- bu və ya digər faktla bağlı müsahibin fikrini öyrənməyi.

## Bilik və bacarıqlara olan tələblər:

***Tələbə bilməlidir:***

- müasir Azərbaycan dilinin funksional müxtəlifliyini;
- dilin üslubi normalarını;

- ünsiyyətin şərtləri və məqsədlərinə uyğun olaraq sinonimik vasitələrin istifadə qanunauyğunluqlarını;
- danışıq səslərinin xüsusiyyətlərini, növlərini;
- söz sonunda q və k samitlərinin işlənmə qaydasını;
- qoşasaitli və qoşasamitli sözlərin yazılış və tələffüz qaydalarını;
- k hərfinin iki səsi ifadə etməsini;
- ahəng qanunu, heca və vurğunun mahiyyətini;
- nitq hissələrinin mahiyyətini, xüsusiyyətlərini, növlərini, yazılışını;
- hal və mənsubiyyət şəkilçilərini;
- sonu q və k ilə bitən sözlərin hallanarkən q-nin ğ-yə, k-nin y-yə keçməsini;
- sözlərin mənaca qruplarını, onların əlamətlərini;
- söz birləşmələrinin mahiyyətini, növlərini;
- cümlənin növlərini, burada durğu işarələrinin işlənmə qaydalarını.

***Tələbə bacarmalıdır:***

- mətni düzgün, ifadəli oxumağı;
- sözlərdə vurğudan düzgün istifadə etməyi;
- mətnin əsas informasiyasını üzə çıxarmağı, elmi məlumatların məzmununu başa düşməyi;
- mətnin strukturu üzərində iş aparmağı, məna bloklarını seçməyi, mətnin hissələri arasında məntiqi əlaqələri müəyyənləşdirməyi;
- mətnin məzmununu nağıl etməyi;
- plan tərtib etməyi;
- lüğətdən istifadə edərək sözləri başa düşməyi;
- mövzu üzrə dialoqda, söhbətdə iştirak etməyi;

- ifadəli nitq qurulması prosesində dil vasitələrindən məqsədəuyğun istifadə etməyi;
- mətndəki sözlərin məna çalarlarını fərqləndirməyi, cümlələrin sadə və mürəkkəb olduğunu müəyyənləşdirməyi;
- məzmuna dair suallara cavab verməyi;
- oxunmuş mətni konspektləşdirməyi.

## Psixologiyanın mövzusu

«Psixologiya» termininin mənası. Psixologiya elminin tarixindən. Bu elmin yaranmasına olan tələbat. Psixologiyanın inkişafı

**Mövzu ilə bağlı terminlər:** psixologiya, ruh, bilik, psixika, ilahiyyat, pnevmatologiya, pnevma, empirik bilik

## Psixologiya elminin tarixindən

Psixologiya elminin inkişaf mərhələləri. Onun müxtəlif ölkələrdə inkişafı. Azərbaycanda psixoloji biliklərin inkişafı

**Mövzu ilə bağlı terminlər:** psixologiya, fəlsəfə, təbiətşünaslıq, şüurlu varlıq, psixoloji fenomen, psixoloji biliklər, psixoloji xarakteristika

## XX əsrdə psixoloji cərəyanlar

Freydizm cərəyanı. Z.Freydin insan davranışı haqqındakı fikirləri. Biheviorizmin mahiyyəti. Koqnitiv psixologiya. Humanistik psixologiyada insan problemi

**Mövzu ilə bağlı terminlər:** psixoloji cərəyan, psixoanaliz, irrassional, asosial, şüur, davranış, psixika, hafizə, təfəkkür, emosiya, ekzistensial psixologiya, psixoterapevt, psixiatr, psixoloq

## Psixi hadisələrin mahiyyəti

Psixika anlayışı. Psixi proseslər. Psixi hallar. Psixi xassələr

**Mövzu ilə bağlı terminlər:** psixika, psixi proses, kateqoriya, idrak prosesləri, iradi proseslər, emosional proseslər,

duyğu, qavrayış, təfəkkür, nitq, təxəyyül, diqqət, hafizə, affekt, ehtiras, temperament, xarakter, qabiliyyət

## Psixika

«Obyekt», «obyektiv», «inikas» anlayışları. Psixikanın xarakteristikası və məzmunu. Psixikanın əmələ gəlməsi. Sinir sistemi və onun növləri. Qıcıqlanma və həssaslıq

**Mövzu ilə bağlı terminlər:** psixika, obyektiv aləm, inikas, psixi inikas, biotik təsirlər, qıcıqlanma, həssaslıq, duyğu, filogenez, torvari sinir sistemi, düyünlü sinir sistemi, borulu sinir sistemi, şüur, ictimai şüur, fərdi şüur

## Psixologiyanın sahələri

Psixologiya elmində diferensiasiya prosesi. Ümumi psixologiyanın vəzifələri. Pedaqoji psixologiyanın predmeti və sahələri. Yaş psixologiyası. Etnik psixologiyanın elmi və praktik əhəmiyyəti. Hüquq psixologiyası və məhkəmə psixologiyasının tədqiqat obyektləri

**Mövzu ilə bağlı terminlər:** tibbi psixologiya, əmək psixologiyası, mühəndislik psixologiyası, təyyarəçilik psixologiyası, kosmik psixologiya, siyasi psixologiya, iqtisadi psixologiya, kommunal psixologiya

## Psixologiyanın prinsipləri

Determinizm və xətti determinizm. Sistemli yanaşma prinsipi. İntrospektiv psixologiya. Şüur və fəaliyyətin vəhdəti prinsipi. Psixika və şüurun fəaliyyətdə inkişafı prinsipi. «Metodologiya», «metod», «tədqiqat metodikası» anlayışları. Psixoloji tədqiqat metodikasının mərhələləri

**Mövzu ilə bağlı terminlər:** şüur, xarici aləm, determinizm, xətti determinizm, fəaliyyət, psixika, emosional halət, instinkt, imprintinq, praktik fəaliyyət, əşyavi fəaliyyət

## Psixologiyanın tədqiqat metodları

Təşkilati metodlar. Şərh metodları. Müşahidə metodunun əhəmiyyəti. Eksperiment metodunun fərqli cəhətləri. Təbii və formalaşdırıcı eksperiment. Sosiometriya psixodiaqnostik metod kimi. İntervü. Anket sorğusu

**Mövzu ilə bağlı terminlər:** longityudal metod, kompleks metod, müşahidə və özünümüşahidə, eksperimental metod, psixodiaqnostik metod, praksimetrik metod, modelləşdirmə, bioqrafik metod, kəmiyyət və keyfiyyət təhlili, test, təbii eksperiment, formalaşdırıcı eksperiment, sosiometriya, intervü, anket sorğusu

## Psixologiyada statistik (riyazi) metodlar

Statistik metodların mahiyyəti. Alternativ analiz metodu. Korrelyasiya analizi metodu. Variasiya analizi metodu. Riyazi psixologiya. Diferensial psixologiya. Reqressiya və korrelyasiya analizi. Faktor analizi. Statistik nəticə nəzəriyyəsi. Eksperimentlərin planlaşdırılması nəzəriyyəsi

**Mövzu ilə bağlı terminlər:** statistik metod, təsviri statistika, statistik nəticə, alternativ analiz, multifikator, reqressiya

## Şəxsiyyət, fərd və fərdiyyət

«Fərd», «şəxsiyyət», «fərdiyyət» anlayışlarının izahı. Şəxsiyyəti xarakterizə edən cəhətlər. Şəxsiyyətin xüsusiyyətləri. Şəxsiyyətin inkişafının şərtləri. Endogen və ekzogen

nəzəriyyələr. «Endopsixika» və «ekzopsixika» anlayışları. Fəaliyyətin növləri

**Mövzu ilə bağlı terminlər:** fərd, şəxsiyyət, fərdiyyət, ictimai fəallıq, motivlərin davamlı sistemi, şəxsi məna, endogen nəzəriyyə, ekzogen nəzəriyyə, endopsixika, ekzopsixika, vasitəsiz emosional ünsiyyət, əşyavi-manipulyativ fəaliyyət, intim-şəxsi ünsiyyət

## Tələbatlar

Tələbat nədir? Tələbatların növləri. Tələbatların səviyyələri

**Mövzu ilə bağlı terminlər:** tələbat, təbii (üzvi) tələbat, mədəni tələbat, maddi tələbat, mənəvi tələbat, ibtidai tələbat, ali tələbat

## Motivlər

Motiv və onun funksiyaları. Təlim motivləri və növləri. Motivlərin formaları. İdrak motivləri və növləri. Motivasiya

**Mövzu ilə bağlı terminlər:** motiv, təlim motivləri, idrak motivləri, motivlərin davamlılığı, motivlərin emosional çaları, motivlərin qüvvəsi, geniş idrak motivləri, tədris-idrak motivləri, özünütəhsil motivləri, motivasiya

## Emosiyalar və hisslər

«Hiss» və «emosiya» anlayışları. Hisslərin xüsusiyyətləri və ifadəsi. Hisslərin qütblüyü. Stenik və qeyri-stenik hisslər

**Mövzu ilə bağlı terminlər:** hiss, emosiya, siqnal funksiyası, tənzimetmə funksiyası, retikulyar formasiya, hisslərin

qütblüyü, stenik hiss, astenik hiss, hisslərin xarici ifadəsi, ifadəli hərəkətlər, dinamik stereotip

## Emosional halətlər

İnsanın emosional halətləri. Ehtiras və növləri. Əhvalı törədən səbəblər. Affekt halları. Stress və onun növləri. Frustrasiya vəziyyəti

**Mövzu ilə bağlı terminlər:** hiss, emosional halət, əhval, affekt, stress, ehtiras, frustrasiya, mənfi ehtiras, müsbət ehtiras, fizioloji stress, psixoloji stress, emosional stress

## Emosional stress və psixosomatik xəstəliklər

Stressi törədən amillər. Psixosomatik proses. Tibbi psixologiyada insan qrupları. Somatik reaksiya. Stressorlar. Psixosomatik xəstəliklər. Üzvi psixosomatik xəstəliklərin tərkibi

**Mövzu ilə bağlı terminlər:** emosional stress, stressor, psixosomatik proses, psixosomatik reaksiya, psixosomatik xəstəlik, üzvi somatik xəstəlik, psixogen təsir

## Ali hisslər

Ali hisslər və növləri. Əxlaqi hisslərin obyekti. Estetik hisslərin mənbəyi. Zehni hisslər

**Mövzu ilə bağlı terminlər:** hiss, ali hiss, əxlaqi hiss, zehni hiss, estetik hiss, idrak, idrak fəaliyyəti

## Sosial mövqe, gözləmələr və nəzarət

Mövqe və ya status. Sosial normalar və funksiyaları. Hörmət və nüfuz. Sosial nəzarət sistemi. Sosial gözləmələr.

Rollar nəzəriyyəsi. Rol davranışı. Rol gözləmələri. Rol konsepsiyası. Rolun ifası

**Mövzu ilə bağlı terminlər:** mövqe, status, sosial qrup, hörmət, nüfuz, sosial norma, tənzimetmə funksiyası, qiymətləndirmə funksiyası, sosial nəzarət sistemi, sosial gözləmələr, rol nəzəriyyəsi, sosial təşkilat, sosial institut, rollararası konfliktlər

## Sosial yönümlər

«Yönəlişlik» anlayışının izahı və tarixi. Yönəlişlik nəzəriyyəsi. Yönəlişliyin növləri. Sosial yönəlişliyin quruluşu

**Mövzu ilə bağlı terminlər:** yönəlişlik, yönüm, mental fəallıq, vasitəsizlik postulatı, stimul, reaksiya, tələbat, sosial yönəlişlik

## İnsanların bir-birini qavraması və anlaması

Sosial persepsiya və appersepsiya. Mimika zonası. Fizioqnomik maska. Psixoloji maska. Sosial etalon və sosial stereotiplər. Refleksiya. İdentifikasiya. Kauzal atribusiya və onun xüsusiyyətləri. Oreol effekti. Yenilik effekti

**Mövzu ilə bağlı terminlər:** sosial persepsiya, şəxsiyyətlərarası qavrayış, qruplararası qavrayış, mimika zonası, appersepsiya, etalon, stereotip, effekt

## Şüur

Şüurun funksiyaları. Koqnitiv funksiyanın mahiyyəti. Tənzimetmə funksiyası. Kommunitativ funksiya. Sosial rol və sosial münasibət

**Mövzu ilə bağlı terminlər:** şüur, fərdi şüur, ictimai şüur, idrak prosesləri, sosial yönəlişlik

## Şüur və şüursuzluq

Şüursuzluq. Şüursuzluq hadisələri

**Mövzu ilə bağlı terminlər:** şüur, şüursuzluq, psixopatologiya, psixiatriya, hipnoz, hipnoterapiya metodu, isterik pozğunluq, həvəs, hallüsinasiya, subsensor reaksiya, supseptiv reaksiya

## Mənlik şüuru

Mənlik şüuru və onun əlamətləri. Mənlik şüurunun strukturu. Mənlik şüurunun formalaşması. «Mən-obraz», «real mən», «ideal mən», «sosial mən» anlayışları

**Mövzu ilə bağlı terminlər:** obraz, özünüqiymətləndirmə, psixoloji avtoportret, refleksiya, «mən», «qeyri-mən», etalon, stereotip

## Özünüqiymətləndirmə

«Özünüqiymətləndirmə» termininin mənası. Özünüqiymətləndirmənin xüsusiyyətləri. Özünüqiymətləndirməni öyrənmə üsulları. Özünüqiymətləndirmənin əhəmiyyəti. İnsanın qiymətlər sistemi. Özünüqiymətləndirmənin səviyyələri

**Mövzu ilə bağlı terminlər:** özünüqiymətləndirmə, özünümüşahidə, özünütəhsil, özünütərbiyə, gözlənilən qiymətlər, adekvat özünüqiymətləndirmə, qeyri-adekvat qiymət

## Özünüqiymətləndirmə və iddia səviyyə

Özünüqiymətləndirmənin formulu. İddia səviyyəsi. Gözləmə səviyyəsi

**Mövzu ilə bağlı terminlər:** özünüqiymətləndirmə, iddia səviyyəsi, motivasiya, gözləmə səviyyəsi

## Psixoloji müdafiə

Müdafiə psixoloji fenomen kimi. Psixoloji müdafiənin funksiyaları və formaları

**Mövzu ilə bağlı terminlər:** müdafiə, psixoloq, frustrasiya, fenomen, freydizm, instinkt

## İnsanın fərd və şəxsiyyət kimi inkişaf mərhələləri

Şəxsiyyətin formalaşması və inkişafı. Fərdi inkişaf. Ontogenez prosesinin mərhələləri. Potensial ontogenetik inkişafın əlamətləri. Yaşın xarakteristikası və növləri

**Mövzu ilə bağlı terminlər:** fərd, şəxsiyyət, yaş psixologiyası, duyğu, qavrayış, hafizə, diqqət, təfəkkür, ontogenez, prenetal ontogenetik inkişaf, postnetal ontogenetik inkişaf, bioloji yaş, sosial yaş, psixoloji yaş, fəaliyyətin optimumu

## Şəxsiyyətin inkişafı

İnkişaf prosesi. Homeostaz prinsipi. İnkişafın xassələri. İnkişaf prosesinin qanunları

**Mövzu ilə bağlı terminlər:** inkişaf, homeostaz, şəxsiyyət, materiya, homeostaz modeli, kəmiyyət, keyfiyyət, zaman

## Şəxsiyyətin inkişafında ünsiyyətin və qarşılıqlı münasibətlərin rolu

Ünsiyyət dialektik proses kimi. Fəaliyyət və ünsiyyətin vəhdəti. Ünsiyyətin xüsusiyyətləri

**Mövzu ilə bağlı terminlər:** şəxsiyyət, mənlik şüuru, psixika, şüur, sosial təcrübə, psixoloji təcrübə, ünsiyyət, subyekt, obyekt, fəaliyyət

## İctimai münasibətlər və şəxsiyyət

«İctimai münasibətlər» anlayışı. İctimai münasibətlərin növləri

**Mövzu ilə bağlı terminlər:** ictimai münasibətlər, maddi münasibətlər, ideoloji münasibətlər, iqtisadi istehsal münasibətləri, şəxsiyyət

## Aparıcı fəaliyyət

Fəaliyyət kateqoriyası. Hər yaş dövründə fəaliyyət

**Mövzu ilə bağlı terminlər:** fəaliyyət, vasitəsiz-emosional ünsiyyət, rollu oyunlar, qaydalı oyunlar, motivasiya-tələbat sahəsi, intellektual tələbat sahəsi, intellektual-idrak prosesləri

## Əşyavi fəaliyyət

Praktik fəaliyyət. Əşyavi fəaliyyət. Fəallıq. Motiv və fəaliyyət. Məqsəd. Maddi (əşyavi) iş. Fəaliyyət prosesinin istiqamətləri. İnteriorizasiya. Fikri əməliyyatların mərhələləri. Eksteriorizasiya. Bacarıq. Fəaliyyətdə məntiq və nəticə. Antisipasiya. Hissi oriyentir

**Mövzu ilə bağlı terminlər:** fəaliyyət, əşyavi fəaliyyət, praktik fəaliyyət, nəzəri fəaliyyət, daxili fəallıq, xarici fəallıq, psixi fəallıq, fiziki fəallıq, məqsəd, motiv, idrak prosesləri, iş, icra funksiyası, tənzimetmə funksiyası, maddi (əşyavi) hərəkətlər, perseptiv əməliyyat, mnemik əməliyyat, fikri əməliyyat, interiorizasiya, eksteriorizasiya, vərdiş, bacarıq, antisipasiya, hissi oriyentir

## Ali psixi funksiyalar

Psixi hadisələrin səviyyələri. Sensor mütəşəkkillik. Həssaslıq. Müşahidəçilik

**Mövzu ilə bağlı terminlər:** «natural» psixi proseslər, «mədəni» psixi proseslər, interpsixoloji proses, intrapsixoloji proses, sistemə məxsus keyfiyyətlər, sistemlilik prinsipi

## İdrakın formaları

İdrak prosesi. Duyğular. Hissi idrak

**Mövzu ilə bağlı terminlər:** idrak, inikas, subyekt, obyekt, passiv inikas, aktiv inikas, vasitəsiz inikas, vasitəli inikas, ehtiyac, tələbat, məqsəd, duyğu, qavrayış, hafizə, təfəkkür, hissi idrak, məntiqi idrak

## Duyğuların növləri

Duyğuların növləri. Xarici duyğular. Daxili duyğular. Duyğunun mütləq həddi. Duyğunun fərqlənmə həddi. Sinesteziya və sensibilizasiya

**Mövzu ilə bağlı terminlər:** ekstroseptiv duyğu, interoseptiv duyğu, proprioreseptiv duyğu, mütləq həssaslıq, fərqləndirmə, həssas

## Qavrayış

Qavrayış idrak prosesi kimi. Appersepsiya. Analizatorun hissələri. Təkmodallıq və çoxmodallıq. Qavrayışın növləri. İllüziya. Zaman qavrayışı. Hərəkət qavrayışı. Perseptiv əməliyyatın səviyyələri

**Mövzu ilə bağlı terminlər:** qavrayış surəti, duyğu, idrak, nitq, təfəkkür, hissi idrak, reseptor, afferent sinir, efferent sinir, qıcıqlayıcı, sadə qavrayış, mürəkkəb qavrayış, görmə qavrayışı, məkan qavrayışı, perseptiv hazırlıq, perseptiv surət

## Diqqət

Diqqət və diqqət obyekti. Diqqətin funksiyaları. Diqqətin növləri

**Mövzu ilə bağlı terminlər:** diqqət, şüur, fərd, ixtiyari diqqət, qeyri-ixtiyari diqqət, xarici diqqət, daxili diqqət

## Diqqətin xüsusiyyətləri

Diqqətin mərkəzləşməsi. Diqqətin həcmi. Diqqətin davamlılığı. Diqqətin keçirilməsi. Diqqətin yayınması. Dalğınlıq və onun formaları

**Mövzu ilə bağlı terminlər:** diqqətin tərəddüdü, ixtiyari diqqət, qıcıqlayıcı, diqqətin paylanması

## Hafizə

Hafizənin əhəmiyyəti. Hafizə prosesləri. Hafizə fəaliyyətinin prinsipləri. Hafizənin növləri. Surət hafizəsi. Hərəkət hafizəsi. Emosional hafizə. Qısamüddətli və uzunmüddətli hafizə

**Mövzu ilə bağlı terminlər:** obrazlı hafizə, sözlü-məntiqi hafizə, operativ hafizə, qonşuluq assosiasiyası, oxşarlıq assosiasiyası, əkslik assosiasiyası, ardıcıl surətlər, əyani surətlər, təsəvvür surətləri, «işçi» hafizə

## Hafizə prosesləri, mnemotexniki üsullar

Mnemik fəaliyyət. Yaddasaxlama və onun formaları. Hifzetmə. Unutma. Yadasalma və onun formaları. Xatirə və tanıma

**Mövzu ilə bağlı terminlər:** mnemonikon, əksinialma, nəqşləndirmə, öyrənmə, xatırlama, ixtiyari yaddasaxlama,

qeyri-ixtiyari yaddasaxlama, xüsusi yadasalma, niyyətli yadasalma, niyyətsiz yadasalma

## Şüur və təfəkkür

Şüur nədir? Şüurun funksiyaları

**Mövzu ilə bağlı terminlər:** şüur, psixika, koqnitiv funksiya, idarəetmə funksiyası, tənzimetmə funksiyası, kommunitativ funksiya

## Təfəkkür

Təfəkkür ali idrak prosesidir. Təfəkkürün formaları. Hökm və növləri. Əqli nəticənin növləri

**Mövzu ilə bağlı terminlər:** təfəkkür, varlıq, idrak, şüur, məfhum, ümumi məfhum, fərdi məfhum, konkret məfhum, şərti hökm, təqsimi hökm, xüsusi hökm, ümumi hökm, fərdi hökm, qəti hökm, fikri fəaliyyət, fikri əməliyyat, təfəkkür prosesləri, təhlil, müqayisə, ümumiləşdirmə, konkretləşdirmə, təsnifat, istidlal, induksiya, deduksiya, təşbih

## Təfəkkürün növləri

Təfəkkürün mənbəyi. Əyani-əməli və əyani-obrazlı təfəkkür. Praktik və mücərrəd təfəkkür. Texniki və məntiqi təfəkkür. Dialektik, nəzəri və yaradıcı təfəkkür

**Mövzu ilə bağlı terminlər:** bədii təfəkkür, qavrayış, uşaq təfəkkürü

## Təfəkkür və nitq

Təfəkkür və nitqin əlaqəsi. Nitqin funksiyaları. Nitq mərkəzi

**Mövzu ilə bağlı terminlər:** siqnifikativ funksiya, ümumiləşdirmə funksiyası, kommunikativ funksiya, eşitmə mərkəzi, hərəki mərkəz, görmə mərkəzi, Vernike mərkəzi, Broka mərkəzi

## Nitqin növləri

Nitq və dil. Nitqin növləri

**Mövzu ilə bağlı terminlər:** xarici nitq, daxili nitq, şifahi nitq, dialoji nitq, monoloji nitq, monoloq, dialoq, yazılı nitq, passiv nitq, fəal nitq, məzmunlu nitq

## Təxəyyül

Aktiv və passiv təxəyyül. Xülya. Xəyal. Bərpaedici və yaradıcı təxəyyül

**Mövzu ilə bağlı terminlər:** təxəyyül, təfəkkür, ahəng, nitq üslubu

## İdrak və motivləşmə

İdrak prosesləri və idrak motivləri. Motivləşmə anlayışı

**Mövzu ilə bağlı terminlər:** idrak, psixi inikas, fərd, ontogenetik inkişaf, motiv, məqsəd, idrak prosesləri, emosional-iradi proseslər, emosiya, motivləşmə, sensor aclıq, təhrik, həvəs, maraq, yönəliş, ideal

## Fəaliyyət

Fəaliyyət sosial kateqoriya kimi. Emosiya və fəaliyyətin emosional tənzimi. Əməl və hissələri. Məqsəd və məq-

sədgüdmə. Fəaliyyətin növləri. Əmək fəaliyyəti və əşyavi fəaliyyət

**Mövzu ilə bağlı terminlər:** psixi fəallıq, fiziki fəallıq, oyun, təlim, praktik fəaliyyət, fikri fəaliyyət, yaradıcı fəaliyyət

## İnsanın cins-yaş xüsusiyyətləri

Cinsin formalaşması. Cinsi inkişafın dövrləri. Cinsi dimorfizm

**Mövzu ilə bağlı terminlər:** cinsi inkişaf, infantilizm, cinsi yetişmə, cinsi dimorfizm

## Cinsi tərbiyə

Cinsi tərbiyə məsələsi. Cinsi tərbiyənin mahiyyəti. Cinsi tərbiyənin vəzifələri

**Mövzu ilə bağlı terminlər:** cinsi xüsusiyyət, urbanizasiya, akselerasiya, cinsi tərbiyə, əxlaq normaları

## Qabiliyyətlər

Qabiliyyət və növləri. Təbii imkanlar. Psixofizioloji xassə. Qabiliyyət və fəaliyyət

**Mövzu ilə bağlı terminlər:** ümumi qabiliyyət, xüsusi qabiliyyət, psixi proses, şəxsiyyət, anatomik xüsusiyyət, fizioloji xüsusiyyət, psixofizioloji xassə

## Qabiliyyətlərin ölçülməsi

Qabiliyyətlərin ölçülməsi ideyası. Ümumi istedad amili. İntellekt. Bine-Simon testləri. İntellekt əmsalı. Testlərin növləri

**Mövzu ilə bağlı terminlər:** psixodiaqnostika, test, istedad, testologiya, xronoloji yaş, ağıl yaşı, əqli gerilik

## Qabiliyyətlərin formalaşması

Qabiliyyətlərin formalaşması prosesi: makroinkişaf, mikroinkişaf. Senzitiv dövr. Vunderkind uşaq

**Mövzu ilə bağlı terminlər:** qabiliyyət, senzitiv dövr, vunderkind

## Şəxsi konstrukt nəzəriyyəsi

«Şəxsi konstrukt» anlayışı. Konstrukt nəzəriyyəsinin tarixi. Repertuar şəbəkə metodu. Koqnitiv çətinlik

**Mövzu ilə bağlı terminlər:** cisim, hadisə, konstrukt

## Temperament

Psixi fəaliyyətin dinamik xarakteristikası. Temperamentin bioloji əsasları. Sinir sisteminin xassələri. Sinir sistemi tipi. Dinamiklik və labilik

**Mövzu ilə bağlı terminlər:** dinamika, psixi fəaliyyət, davranış, humoral sistem, somatik sistem, sinir sistemi, dinamiklik, labilik

## Temperamentin xassələri

Temperament nəzəriyyəsinin tarixi. Ümumi aktivliyin mahiyyəti. Hərəki aktivlik. Emosionallığın əsas cəhətləri. Temperament tipləri

**Mövzu ilə bağlı terminlər:** intellekt, vərdiş, xarakter, affekt, əhval, mütəəssirlik, impulsivlik, sanqvinik tip, xolerik tip, fleqmatik tip, melanxolik tip

## Xarakter

Xarakter və onun əlamətləri. Psixopatiya və əlamətləri

**Mövzu ilə bağlı terminlər:** anomaliya, tipik xarakter əlaməti, fərdi xarakter əlaməti, temperament, dünyagörüşü, əqidə

## Xarakterin aksentuasiyası

«Xarakterin aksentuasiyası» nə deməkdir? Aksentuasiya problemi. Xarakterin aksentuasiyası tipləri

**Mövzu ilə bağlı terminlər:** aksentuasiya, xarakter, psixiatriya, psixonevralogiya, sosial əlamət, epileptoid əlamət, nevroz, reaktiv depressiya

## İradə və iradi iş

İradə psixi proses kimi. İradənin funksiyaları. Reaktiv və impulsiv davranış. İradi işin xarakteri. Səmərəli və səmərəsiz risk. İradi işin mərhələləri

**Mövzu ilə bağlı terminlər:** təhriketmə funksiyası, ləngitmə funksiyası, ixtiyari iş, motiv, intellektual mərhələ, icra mərhələsi

## Fərdiyyətin tipologiyası

Tipologiya anlayışı. Diferensial psixologiya. Tipoloji sxemlərin variantları

**Mövzu ilə bağlı terminlər:** tipologiya, uşaq psixologiyası, pedaqoji psixologiya, əmək psixologiyası, patopsixologiya, obyektiv və subyektiv tip, rasionalist tip, empirik tip, ekstravert tip, introvert tip

## Bədən quruluşu və xarakter

Somatik amillərin rolu. Ümumi konstitusiya. Xüsusi konstitusiya və növləri. Mikrofiziki və makrofiziki konstitusiya. Fərdi-psixoloji xassələr sistemi

**Mövzu ilə bağlı terminlər:** somatik amil, hormon, konstitusiya, morfoloji konstitusiya, funksional konstitusiya, somatotip, morfotip, neyrodinamik konstitusiya

## Psixopatiyanın tipləri

Psixopatiyanın yaranma səbəbləri. Psixopatiyanın tədqiq tarixi. Psixopatiyanın tipləri

**Mövzu ilə bağlı terminlər:** endogen amil, xarakterin aksentuasiyası, psixopat, astenik, paronoyal psixopatiya, səbatsız psixopatiya və s.

## Şəxsiyyətin fərdi xüsusiyyətlərinin təhlili

Fərdi yanaşma prinsipi. Fərdi yanaşmanın cəhətləri. Təlimin fərdiləşdirilməsi

**Mövzu ilə bağlı terminlər:** pedaqoji təsir, müşahidə, eksperiment

## Ünsiyyətin xüsusiyyətləri

Ünsiyyətin predmeti, motivləri. Ünsiyyətin vasitələri. Şəxsi ünsiyyət və səviyyələri. İnformasiyanın tipləri. Sosial persepsiya

**Mövzu ilə bağlı terminlər:** motiv, tələbat, nitq, ekspressiv-mimik vasitələr, əşyavi-hərəki vasitələr, informasiya, subyekt, təhrikedici informasiya, təsbitedici informasiya, sosial persepsiya

## Qarşılıqlı münasibətlər və ünsiyyət

Qarşılıqlı münasibətlərin tipləri. Ünsiyyət mədəniyyəti

**Mövzu ilə bağlı terminlər:** formal qarşılıqlı münasibətlər, qeyri-formal qarşılıqlı münasibətlər, psixoloji iqlim

## Ünsiyyət çətinlikləri

Psixoloji çətinliklərin mahiyyəti. Sosial-psixoloji treninqin əsas vəzifəsi

**Mövzu ilə bağlı terminlər:** treninq, sosial qrup, sosial psixologiya, sosiometriya nəzəriyyəsi

## Qrup və kollektiv

Qrup nədir? Şərti və ya nominal qrup. Real qrupların növləri. Böyük qrupların tərkibi. Orta və ya lokal qrup. Referent qrup və növləri. İştirak qrupu. Kollektiv

**Mövzu ilə bağlı terminlər:** reallaborator qrup, real təbii qrup, kiçik qrup, üzvlük qrupu, referent müqayisə qrupları, normativ referent qruplar, etalon qrup

## Birgə işləməyə alışma və uyuşma

Psixoloji uyuşmanın əhəmiyyəti. Pedaqoji psixologiya və bölmələri. Pedaqoji ünsiyyət

**Mövzu ilə bağlı terminlər:** uyuşmazlıq, rəsmi münasibət, işgüzar münasibət, qeyri-rəsmi münasibət, şəxsi münasibət, uşaq kollektivi, ünsiyyət, şəxsiyyət

## Liderlik və rəhbərlik

Liderliyin funksiyaları. Liderlik və rəhbərlik fenomenləri. «Kollektiv subyekt» anlayışı. Rəhbər işçinin xarakte-

ristikası. Liderliyə məxsus kəmiyyətlər. Lider tipləri. Qeyri-rəsmi liderin növləri

**Mövzu ilə bağlı terminlər:** sosial psixoloji status, kollektiv, sosial psixologiya, davranış, fenomen, subyekt, makromühit, mikromühit, rəsmi lider, qeyri-rəsmi lider, pozitiv qeyri-rəsmi lider, neqativ qeyri-rəsmi lider, təşkilatçı neqativ lider, kommunikator neqativ lider

## Şəxsiyyət və ailə

«Ailə» anlayışı. Ailə həyatında uyuşmanın növləri. Ailə mədəniyyəti. Ailə problemləri. Ailənin uşaq həyatında rolu

**Mövzu ilə bağlı terminlər:** dialektika, sosial-mənəvi uyuşma, psixoloji uyuşma, psixofizioloji uyuşma, ünsiyyət, şəxsiyyət

## Psixoterapiya və psixoloji xidmət

Psixoterapiya və onun istiqamətləri. Psixoloji xidmət sistemi

**Mövzu ilə bağlı terminlər:** psixoterapevt, psixiatriya, psixoanalitik, psixoterapiya, bihevioristik psixoterapiya, ekzistensial-humanistik psixoterapiya, psixoloq, ailə xidməti

## Psixi sağlamlıq

Psixi sağlamlığın səviyyələri. Psixi sağlamlığın pozulması. Psixi müvazinət. Psixi sağlamlığın göstəriciləri

**Mövzu ilə bağlı terminlər:** xarakter, psixi pozgunluq, anomaliya, disharmoniya, ünsiyyət, psixi müvazinət, optimizm

## Özünüidarə və psixi sağlamlıq

Psixoloji özünüidarə və onun mərhələləri. Həyat tərzi. İnformasiyanın insan psixikasına təsiri

**Mövzu ilə bağlı terminlər:** psixi hadisələr, sensor aclıq, illüziya, hallüsinasiya, psixika

## Psixikanın ehtiyatları

Psixikanın imkanları. Funksional imkan. Autogen məşq. Biomexanika

**Mövzu ilə bağlı terminlər:** psixika, bioloji tələbat, sosial tələbat, autotreninq, tibbi idman, idman psixologiyası

## ƏDƏBİYYAT

***Azərbaycan dilində:***

1. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili. IVh. Sintaksis. B., «Şərq-Qərb», 2007
2. Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik terminləri. B., «Maarif», 1989
3. Axundov A. Azərbaycan dilinin fonetikası. B., «Maarif», 1984
4. Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. B., «Elm», 2005
5. Ali məktəblərdə xarici tələbələr üzrə hazırlıq kursu üçün «Azərbaycan dili» fənninin proqramı. Tərtib edən: R.Həbibli. B., Bakı Univers.nəşr., 2006
6. «Azərbaycan dili və nitq mədəniyyəti» fənni üzrə proqram (Bakalavr hazırlığı üçün). Tərtib edən: S.Abdullayeva. B., 2008
7. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. B., «Şərq-Qərb», 2006
8. Bakalavr hazırlığı üçün «Müasir Azərbaycan dili» fənninin proqramı. B., Bakı Univers. nəşr., 2004
9. Bayramov Ə., Əlizadə Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. B., "Çinar-çap" Nəşr.poliq.müəs., 2002
10. Cəfərov S. Müasir Azərbaycan dili. II h. Leksika. B., «Şərq-Qərb», 2007
11. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili. I h. Fonetika. B., «Şərq-Qərb», 2007

12. Ələkbərova X., Hacıyeva M. Nitqin elmi üslubu (dərslik). B., «Azərbaycan Milli Ensiklopediyası», NPB., 2003
13. Həbibli R. Azərbaycan dili (dərslik). B., «Təhsil» NPM, 2010
14. Hüseynzadə M. Müasir Azərbaycan dili. III hissə. Morfologiya. B., «Şərq-Qərb», 2007
15. Qarayev A., Cəfərov S., Cəfərova K. Avropa mənşəli sözlərin izahlı lüğəti. B., «Maarif», 1999
16. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I c. B., «Nurlan», 2003
17. Qurbanova M., Abdullayeva M. Azərbaycan dili (dərs vəsaiti). B., Bakı Univers. nəşr., 2006
18. Nitqin elmi üslubu üzrə proqram (mühəndis-texniki və kimya-biologiya təmayüllü). B., «Azərbaycan Milli Ensiklopediyası», NPB, 2003

***Rus dilində:***

19. Алеева А. Русский язык. (научный стиль речи) ч.1, Тамбов, изд-во ТГТУ, 2003; ч.2, 2004
20. Ахманова О. Словарь лингвистических терминов. М., «Сов.энцикл.», 1966
21. Домнич С.П. Я – будущий психолог. Учеб. Пособ. для студ.-иностр. Харьков, ХНУ, 2009
22. Митрофанова О. Научный стиль речи: проблемы обучения. М., «Русский язык», 1985
23. Русский язык как иностранный. Методика обучения русскому языку: учеб.пособ.для высш.учеб. завед. (Г.М.Васильева и др.). М., «Владос», 2004

24. Учебное рабочая программа по русскому языку (научный стиль речи). Сост.: Сафронова Т., Романовская М., БГУ, 2010

***İnternet resursları:***

ict.az/az/index.php

e-qanun.az/files

bsu-edu.org

window.edu.ru

www.bsu.by/cache/pdf

www.studmed.ru

lib.madi.ru

profobrazovanie.ucoz.ru